# "AzərEnerji" COP29-la bağlı gücləndirilmiş iş rejiminə keçir

COP29 tədbirinin və ümumilikdə Bakı şəhəri başda olmaqla ölkənin fasiləsiz və dayanıqlı elektrik təchizatının təmin edilməsi üçün "AzərEnerji" ASC gücləndirilmiş iş rejiminə keçir.

ASC-dən AZƏRTAC-a bildirilib ki, "AzərEnerji" tərəfindən müvafiq dövlət qurumları ilə birgə enerji obyektlərinin fiziki və kiber təhlükəsizliyinin təmin edilməsindən tutmuş, enerji obyektlərində istismar və texniki xidmətlə əlaqədar baş verə biləcək qəza açılmalarının qarşısının alınmasına qədər bütün qabaqlayıcı tədbirlər görülüb. Bunun üçün paytaxt və ətraf ərazilərdə yerləşən 37 qovşaq yarımstansiyası, 129 ötürmə xətti və 6 elektrik stansiyası tam təftiş olunub, istehsal prosesində əlavə ehtiyat güc saxlanılması üçün resurslar müəyyən edilib.

Bundan başqa, yeni gətirilən elektrik avtobuslarının enerji ilə təmin edilməsi üçün 110 kilovoltluq Zığ yarımstansiyası tam yenidən qurulub və genişləndirilərək gücləndirilib.

Eyni zamanda, COP29 tədbiri ilə əlaqədar Hava Limanı, Zığ şosesi və 8 Noyabr prospekti ilə kəsişən, eləcə də, Hava Limanı yolu kənarı ilə gedən 5,5 kilometr məsafədə 110 kV-luq ikidövrəli yüksəkgərginlikli hava xətləri sökülərək yeraltı kabel xətləri ilə əvəz edilib.

Tədbirlə əlaqədar xüsusi təyinatlı briqada və səyyar diaqnostika laboratoriya avtomobilləri daim iş başında olacaq. Eyni zamanda, avtomobil və xüsusi təyinatlı dronlar üzərində quraşdırılmış yüksək dəqiqlikli kameralar və teplovizorlarla yarımstansiya və xətlərdə qızma nöqtələrinin müəyyən edilməsi və beləliklə, adi gözlə görünməsi mümkün olmayan qəza risklərinin müəyyənləşdirilməsi təmin ediləcək.

Beləliklə, 24 saat fasiləsiz növbətçilik prinsipi ilə fəaliyyət göstərən "AzərEnerji" ən müasir innovativ yeniliklər tətbiq etməklə istər enerjinin istehsalı, istər ötürülməsi, istərsə də idarə olunması sahəsində bütün gücünü səfərbər edib.

**AZƏRTAC
2024, 30 oktyabr**